**Pol Stretern**

# SARTRLA 90 DƏQİQƏ

Tərcüməçi:
Ofeliya Rəhimqızı

QANUN NƏŞRİYYATI

**Paul Strathern**

# SARTRE IN 90 MINUTES

Bu əsərdə XX əsrin görkəmli fransız filosofu Jan-Pol Sartrın həyat yolu, yaradıcılığı, eləcə də əsas fəlsəfi ideyaları yığcam və anlaşılan şəkildə təqdim olunur. Oxucuya ekzistensializm nəzəriyyəsinin mahiyyətini, Sartrın ədəbiyyatdakı rolunu və fəlsəfi irsinin aktuallığını qısa zaman ərzində dərk etmək imkanı verilir.

**Paul Strathern SARTRE IN 90 MINUTES**
**Pol Stretern SARTRLA 90 DƏQİQƏ**

Janr: fəlsəfə
Yaş qrupu: 16+
Ölçü: 120x185 mm
Cild: yumşaq
Səhifə sayı: 80

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Ofeliya Rəhimqızı |
| Redaktor: | Qurban Təbiətoğlu |
| Korrektor: | Aygül Yelmarlı |
| Qapaq dizaynı: | Rafael Qasım |
| Mətn dizaynı: | Ramin Əli |

Qanun Nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pr., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-606-45-4

© Qanun Nəşriyyatı, 2026
© Chicago: Ivan R.Dee, 1996

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununa ziddir.

## MÜNDƏRİCAT


Ön söz ........................................................... 7

Sartrın həyat və yaradıcılığı ................................ 10

Sartrın əsərlərindən ............................................ 73

Fəlsəfə tarixində əsas mərhələlər ........................ 76

Sartrın həyat xronologiyası ................................. 79

# Ön söz

Görünür, tarixdə heç bir filosof Jan-Pol Sartr kimi hələ sağlığında bu qədər populyarlıq qazanmayıb. Onun əsərləri ilə tələbələr, ziyalılar, inqilabçılar – dünyanın bütün oxucuları tanış idi.

Bu misilsiz populyarlıq mütəfəkkirin fəlsəfi üstünlükləri ilə az əlaqəsi olan iki amillə izah olunur. Birincisi, Sartr özünü ekzistensializmin nümayəndəsi kimi çox əlverişli bir məqamda təqdim etdi: bu fəlsəfə müharibədən sonrakı Avropada ideallların dağılması nəticəsində yaranan mənəvi boşluğu doldurdu. İkincisi, filosofun inqilabi və anti-avtoritar əhvali-ruhiyyənin xeyrinə olan sonrakı seçimi cəmiyyətin həssas siminə toxundu: bu, Çe Gevara, geniş yayılmış tələbə iğtişaşları və Kommunist Çindəki mədəni inqilaba rəğbət dövrü idi. Görünür, siyasi məsələlərdən heç biri Sartrın diqqətindən kənarda qalmayıb. Təəssüf ki, sonrakı hadisələr onun, demək olar ki, hər şeydə yanıldığını göstərdi.

Sartr fəlsəfəsinin erkən dövrü ayrı bir mövzudur. Ehtimal ki, onu ilk ekzistensialist adlandırmaq olmazdı, lakin Sartrı ictimaiyyət qarşısında bu cür tanıdan məhz özü olmuşdur. Bundan əlavə, o, şübhəsiz ki, ekzistensializmin ən istedadlı nümayəndələrindən biri idi. Fəlsəfi ideyaları inkişaf etdirmək və faktları dərk etmək qabiliyyəti baxımından XX əsrdə onun tayı-bərabəri yox idi. Sartrın fəlsəfəsi parlaq, obrazlı şəkildə təqdim olunurdu, lakin çətin ki, ciddi analitik dəqiqlik üstünlüyünə malik idi. Bu səbəbdən də ortodoks filosoflar çox vaxt onun yaradıcılığına laqeyd yanaşırdılar: onların fikrincə, nə Sartrın əsərləri, nə də ekzistensializm, ümumiyyətlə, fəlsəfə hesab edilə bilməz.

Ekzistensializm fərdin hüdudsuz azadlığını təsdiq edən nəzəriyyə idi; gecə klublarının müğənnisi Cülyetta Qreko bu barədə belə demişdir: "Nə edirsənsə, o olursan". Yəni insanın etdikləri onun kimliyini formalaşdırır. Ekzistensializm həm bu ifadə qədər sadədir, həm də (Sartrın təqdimatında) müasir fəlsəfəyə layiq bir dərinliyə malikdir.

Bu, təsirli və şəxsi çalarlarla zəngin "fəaliyyət fəlsəfəsi" və ya hətta tənqidçilərinin iddia etdikləri kimi, solipsizmlə (yəni yalnız mənim "mən"liyimin mövcud olduğu inancı ilə) həmsərhəd olan introspeksiya (özünü müşahidə) nəzəriyyəsidir. Lakin

hamı bu qənaətdədir ki, Sartrın səyləri nəticəsində ekzistensializm İkinci Dünya müharibəsindən sonra süqut edən Avropa burjua dəyərlərinin dəfnedicisinə çevrildi. Burjuaziyanın (xüsusən də orta təbəqənin) dünyagörüşü ilə ekzistensializm bir-birini istisna edirdi: ekzistensialist və eyni zamanda, burjua olmaq mümkün deyil.

## Sartrın həyat və yaradıcılığı

Jan-Pol Sartr burjua ailəsində anadan olub. Atası dəniz zabiti idi və gələcək filosofun hələ bir yaşı tamam olmamış o, tropik qızdırmasından vəfat etmişdi. Sartr sonralar bunu həyatının "ən böyük hadisəsi" adlandırırdı. "Atam yaşasaydı, bütün ağırlığı ilə mənim üzərimə çökər və məni əzərdi".

Edip kompleksinin bu fantaziyasını inkar edən Sartr oğul itaətkarlıq kimi bir vərdişi olmadan böyüdüyünü deyirdi: "Mənim üçün "üstün-mən" kompleksi məlum deyildi… heç bir aqressivlik yox idi". Onun nə hakimiyyət marağı, nə də kiməsə hökm etmək istəyi vardı. Buna görə də təəccüblü görünür ki, bu qədər məsum keçən uşaqlıq çağı burjuaziyaya (eləcə də orta təbəqənin bütün adət-ənənə və dəyərlərinə) qarşı dərindən kök salmış nifrətlə, bütün həyatı boyu müşayiət edilən hər hansı bir avtoritetlə mübarizə aparmaq və onunla (Sartrla) yaxın təmasda olan hər kəs üzərində psixoloji üstünlük qazanmaq meyli ilə nəticələnmişdir. Sartrın parlaq dühası